ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# DÖVLƏT MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İŞLƏYƏN TƏHSİLVERƏNLƏRİN SERTİFİKATLAŞDIRILMASININ

# QİYMƏTLƏNDİRMƏ ÇƏRÇİVƏSİ

*2026*

# Mündəricat

**Giriş** ........................................................................................ 3

**Sertifikatlaşdırma çərçivə sənədinin hüquqi bazası**.......................... 4

**Test imtahanı mərhələsi**........................................................................ 9

**Ədəbiyyat siyahısı**.................................................................................11

**Qiymətləndirmə cədvəli** .......................................................................... 13

# Giriş

Sertifikatlaşdırma prosesi məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının obyektiv qiymətləndirilməsi məqsədini daşıyır. Bu qiymətləndirmə prosesi təhsilverənlərin bilik, bacarıq və pedaqoji keyfiyyətlərini dəyərləndirməklə yanaşı, keyfiyyətli təhsil mühitinin təmin olunmasına dəstək vermək baxımından xüsusi əhəmiyyətə malikdir. Həmçinin, sertifikatlaşdırmanın nəticələri təhsilverənlərin karyera inkişafında və əməyinin stimullaşdırılmasında nəzərə alınır. Bu baxımdan, təhsilverənlərin sertifikatlaşdırılması məktəbəqədər təhsil üzrə kadr potensialının formalaşdırılmasında praktik əhəmiyyət daşıyır.

Təhsilverənlərin sertifikatlaşdırılması çərçivə sənədinin hazırlanmasında Azərbaycan Respublikasının normativ hüquqi aktlarına istinad edilmişdir. Sertifikatlaşdırma imtahanının əsas məqsədi təhsilverənlərin peşəkar bilik və bacarıq səviyyəsini obyektiv şəkildə qiymətləndirmək, məktəbəqədər təhsilin keyfiyyətini yüksəltməkdir.

Çərçivə sənədi təhsilverənlərin keyfiyyət göstəricilərini *məzmun və metodika, təhlükəsizlik, pedaqoji etika və əməkdaşlıq, özünüinkişaf sahələri* üzrə qruplaşdıraraq həmin sahələrin qiymətləndirilməsində müxtəlif üsulların tətbiq edilməsinə imkan yaradır. Beləliklə, təhsilverənlərin keyfiyyət göstəriciləri ilə bağlı vahid yanaşma formalaşır və keyfiyyət göstəricilərinin səviyyəsini müxtəlif üsullarla ölçərək dolğun və real məlumat bazası əldə edilir.

Çərçivə sənədinin hazırlanmasında istifadə olunan holistik yanaşma Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (Məqsəd 4. Keyfiyyətli təhsil) tam cavab verir.

## Sertifikatlaşdırma çərçivə sənədinin hüquqi bazası

“Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində qeyd edildiyi kimi dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Bununla bağlı, kompetensiyaların inkişafını hədəfləyən “ömürboyu təhsil”ə xüsusi önəm verilir, təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılır.

Məktəbəqədər təhsil “Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində milli prioritet dəyəri olan sahə kimi qiymətləndirilir və “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda inkişaf siyasətinin mühüm əhəmiyyətə malik bir komponenti kimi qəbul edilir. Qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılmış bu sənəddə ölkə üzrə məktəbəqədər təhsilin əhatəlilik göstəricilərinin yaxşılaşdırılması ilə yanaşı, məktəbəqədər təhsilin məzmununun yenilənməsi, pedaqoji heyətin peşəkarlığının artırılması, məktəbəqədər təhsilin keyfiyyət təminatı sisteminin yaradılması kimi tapşırıqlar da qarşıya qoyulmuş və burada kəmiyyət deyil, *keyfiyyət* önə çıxarılmışdır (cədvəl 1).

**Cədvəl 1.**

| **Milli prioritet 3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı** | | | |
|---|---|---|---|
| **Məqsəd 3.1. XXI əsrin tələblərinə uyğun təhsil** | | | |
| **3.1.1. Fəaliyyət istiqaməti. Erkən yaş dövründə səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması** - | | | |
| Məktəbəqədər təhsil üzrə dövlət standartlarının və təhsil proqramının təkmilləşdirilməsi, məktəbəqədər təhsil sistemində çalışan pedaqoji və idarəetmə heyəti üçün ixtisasartırma təlimlərinin təşkil edilməsi | Məktəbəqədər təhsilin keyfiyyət təminatı sisteminin yaradılması və xarici keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi | Alternativ təhsil və maliyyələşmə modelləri (icma əsaslı məktəbəqədər təhsil, valideyn–dövlət–özəl əməkdaşlığı və s.) əsasında əhatəliliyin artırılması | Qabaqcıl təcrübə əsasında məktəbəqədər təhsil üzrə pedaqoji və idarəetmə heyətinin sertifikatlaşdırılması sisteminin yaradılması və tətbiqi |

Sertifikatlaşdırma çərçivə sənədi məqsəd 3.1.-in (XXI əsrin tələblərinə uyğun təhsil) fəaliyyət istiqamətlərini rəhbər tutmaqla bərabər “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda yer almış:

- maddə 4.0.10. “Məktəbəqədər təhsil müəssisələrinə elmi-metodik rəhbərliyi və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək”;

- maddə 4.0.16. “Dövlət məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesini və idarəetməni təkmilləşdirmək, bu müəssisələri ixtisaslı pedaqoji işçilərlə ... təmin etmək” kimi dövlətin üzərinə düşən vəzifələrdən çıxış edərək hazırlanmışdır.

Sənədin hazırlanması üçün təhsilverənlərin kvalifikasiya göstəricilərini (peşəkar dəyərləri, bilik və bacarıqları) aydınlaşdırmaq mütləqdir və bunu Azərbaycan Respublikasının məktəbəqədər təhsil sahəsi ilə bağlı normativ hüquqi sənədlərinə əsasən müəyyənləşdirmək mümkündür.

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli qərarı ilə təsdiq edilmiş “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi” ***təhsilverənlərin*** vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

5.6.2. ixtisasını artırmaq, peşəkarlıq səviyyəsini yüksəltmək və sertifikatlaşdırmadan keçmək;

5.6.3. dövlət təhsil standartlarına uyğun olaraq, təhsilalanların zəruri bilik və həyati bacarıqlara yiyələnməsini təmin etmək;

5.6.5. təhsilalanları Azərbaycan xalqının dilinə, adət və ənənələrinə, mənəvi dəyərlərə, dövlət rəmzlərinə hörmət, azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyə etmək;

5.6.6. uşaqların şərəf və ləyaqətinə hörmət etmək, pedaqoji etika və əxlaq normalarına riayət etmək, təhsil işçisi adını yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;

5.6.7. uşaqların təhlükəsizliyinin və sağlamlığının qorunmasında bilavasitə iştirak etmək, onları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq;

5.6.8. uşaqların təlim-tərbiyəsi və inkişafı ilə bağlı valideynlərlə əməkdaşlıq etmək;

5.6.9. təhsilalanları müəyyən edilmiş təhsil standartları əsasında məktəb təliminə hazırlamaq.

2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 20.12.2017-ci il tarixli, 18-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nda məktəbəqədər təhsil müəssisəsində ***tərbiyəçi-müəllim*** vəzifəsinin əmək funksiyası aşağıdakı kimi təqdim olunmuşdur:

- məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak edir;
- uşaqları fiziki və psixi zorakılığın bütün formalarından qoruyur, onları zərərli vərdişlərdən çəkindirir;

- dövlət təhsil standartlarının tələblərinə riayət edir;
- təhsil proqramlarının mənimsənilməsini təmin edir;
- uşaqların tərbiyəsini və hərtərəfli harmonik inkişafını təşkil edir və həyata keçirir, onları məktəb təliminə hazırlayır;
- qrupda hər bir uşağın səhhətinin vəziyyətini və onun möhkəmləndirilməsi işini izləyir, tibbi heyətin tələblərini yerinə yetirir;
- uşaqlara diqqətlə yanaşır, onların fərdi xüsusiyyətlərini öyrənir;
- təlim-tərbiyə işini planlaşdırır;
- uşaqlar üçün müəyyən edilmiş gün rejiminin yerinə yetirilməsini təmin edir;
- uşaqların səhhəti haqqında rəhbərliyə və tibbi heyətə müntəzəm olaraq məlumat verir;
- uşaqların ailədə tərbiyəsinə dair valideynlərlə iş aparır;
- məktəbəqədər təhsil müəssisəsinin daxili intizam qaydalarına riayət edir;
- uşağın yaş səviyyəsini, potensial imkanlarını nəzərə almaqla, təlim metodlarını düzgün seçir, uşağın meyl, maraq və qabiliyyətlərini aşkara çıxarıb inkişaf etdirir.

3. Qeyd olunan sənəddə məktəbəqədər təhsil müəssisəsində ***metodist*** vəzifəsinin əmək funksiyası isə aşağıdakı kimi təqdim edilmişdir:

- məktəbəqədər təhsil müəssisəsində təlim-tərbiyə işlərinə metodik rəhbərliyi həyata keçirir;
- uşaq bağçasında uşaqların tərbiyəsi və təlimi proqramının yerinə yetirilməsini təmin edir və nəzərdə saxlayır, bütün yaş qruplarında təlim-tərbiyə işlərinin düzgün təşkili üçün məsuliyyət daşıyır;
- tərbiyəçilərin və tibbi personalın işlərinə nəzarət edir və onları istiqamətləndirir;
- qabaqcıl pedaqoji təcrübəni öyrənir, ümumiləşdirir və yayır, pedaqoji şuraların müzakirəsinə, uşaqların tərbiyəsinə dair materiallar hazırlayır və tərbiyəçilərin pedaqoji şuranın iclasında fəal iştirakını təmin edir, qəbul olunmuş qərarların yerinə yetirilməsinə nəzarət edir;
- uşaqların yaşına müvafiq olaraq pedaqoji vəsait və oyuncaqların seçilməsini həyata keçirir;
- valideynlər arasında pedaqoji biliklərin təbliği, müxtəlif yaş qrupları tərbiyəçilərinin, eləcə də məktəbəqədər təhsil müəssisəsi ilə məktəbin fəaliyyətində varisliyin təmin olunması üzrə işi təşkil edir;

- məktəbəqədər təhsil müəssisəsində metodiki kabinetin işini təşkil edir;
- tərbiyəçilərə praktiki kömək göstərmək məqsədilə məsləhət saatları keçirir.

Yuxarıda qeyd olunanlara əsaslanaraq təhsilverənlərin peşə yararlılığının göstəriciləri müəyyənləşdirilmiş və qiymətləndirməni optimallaşdırmaq məqsədi ilə həmin kvalifikasiya göstəriciləri aşağıdakı sahələr üzrə qruplaşdırılmışdır:

**Məzmun və metodika**

Erkən uşaqlıq dövrü və məktəbəqədər təhsil üzrə dövrün tələbinə uyğun pedaqoji və psixoloji elmi biliklər və metodiki bacarıqlara malik olması;

Təlimin təşkilində müəllimyönümlü və uşaqyönümlü yanaşmaları fərqləndirə bilməsi, uşaqyönümlü yanaşmaya üstünlük verməsi;

Təlim prosesini idarə etməsi, dəyərləndirməsi və proqnozlaşdırması.

**Təhlükəsizlik**

Uşaqların sağlamlığının qorunmasını (gigiyena və ilkin tibbi yardım bacarıqları) təmin etməsi;

Uşaqların həyatına təhlükə yarada biləcək situasiyalar zamanı (yanğın,zəlzələ, terror aktı və s.) təhlükəsizlik tədbirlərini görməsi;

Psixoloji və sosial şiddətdən (zorakılıq, sosial qısnama və s.) qabaqlayıcı və müdafiə tədbirlərini görməsi;

Məlumat təhlükəsizliyini və konfidensiallığı təmin etməsi.

**Pedaqoji etika və əməkdaşlıq**

Pedaqoji kollektiv ilə qarşılıqlı əlaqə;

Valideynlərlə konstruktiv ünsiyyət;

Təhsilverənlərin etik davranış qaydalarına riayət etməsi;

Öz hüquqlarını tanıması və qanuni yollarla müdafiə etməsi.

**Özünüinkişaf**

Metodik işin təşkili;

Özünütəhlil, tədqiqatçılıq, özünütəhsil;

Özünüidarə və özünübərpa (stresə davamlılıq) bacarıqlarının əhəmiyyətinin fərqində olması və onları tətbiq etməsi;

Cədvəldə göstərilən sahələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 351 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı”nın 6-cı bəndində qeyd olunan “Məktəbəqədər təhsil pilləsində təhsilverənlərin peşəkarlıq keyfiyyətlərinə dair tələblər” əsasında hazırlanıb və təhsil pillələri arasında varislik prinsipi təmin edilib.

# Test imtahanı mərhələsi

Test imtahanı mərhələsinin sualları təhsilverənlərin tutduğu vəzifə üzrə əmək funksiyasına və peşəsinə uyğun olmaqla tərtib edilir. Test imtahanı mərhələsində təhsilverənlərə məktəbəqədər təhsilin məzmunu və metodikası, həmçinin uşaq və yaş psixologiyası üzrə 60 (altmış) sual təqdim edilir.

| № | Sahələr | Mövzular |
|---|---|---|
| 1. | **Məzmun və metodika** | Məktəbəqədər təhsilin inkişaf sahələri və standartları |
| | | Psixo-pedaqoji nəzəri əsaslar<br>(J.Piaje "Koqnitiv inkişaf" nəzəriyyəsi; L.Vıqotski "Sosial inkişaf nəzəriyyəsi"; H.Gardner "Çoxnövlü inkişaf nəzəriyyəsi" və s.) |
| | | Uşaq şəxsiyyətinin formalaşması (ünsiyyət tələbatı, emosional-iradi inkişafı) |
| | | M.Montessori, Valdorf, R.Emilianın pedaqoji yanaşmaları |
| | | Uşaqlarda yaşına görə öyrənmə xüsusiyyətləri |
| | | Metodika:<br>• Sensor bacarıqların inkişafı<br>• Fiziki tərbiyə (sensor, böyük və kiçik motor bacarıqları)<br>• Təsviri fəaliyyət<br>• Ətraf aləmlə tanışlıq<br>• Nitq inkişafı<br>• Bədii təfəkkürün inkişafı<br>• Məntiqi və riyazi təfəkkürün inkişafı<br>• Savad təliminin inkişafı<br>• Uşaqlarda özünəxidmət və əmək vərdişlərinin formalaşması<br>• Oyunlar və onların təlimdə tətbiqi xüsusiyyətləri<br>• Uşaqların məktəb təliminə hazırlığı |
| | | Təlim və fəaliyyətlərin planlaşdırılması, təşkili, idarəedilməsi, dəyərləndirilməsi, proqnozlaşdırılması və s. |
| | | Fəaliyyət mərkəzləri və onların xüsusiyyətləri |
| 2. | **Təhlükəsizlik** | Uşaq hüquqları |
| | | Gigiyena qaydaları və ilkin yardım |
| | | Xarici və daxili öyrədici mühitdə təhlükəsizliyin təmin edilməsi |

| | | |
|---|---|---|
| | | İnklüziv təhsil mühitinin təşkili:<br>• Bütün uşaqlarda yaradıcılığın dəstəklənməsi və həvəsləndirilməsi<br>• Müxtəlif mədəniyyətli uşaqlarla iş və gender bərabərliyi |
| **3.** | **Pedaqoji etika və əməkdaşlıq** | Təhsilverənlərin etik davranış qaydaları |
| | | Tərbiyəçi-müəllimin hüquq və vəzifələri |
| | | Müəllimin ünsiyyət, qarşılıqlı əlaqə, əməkdaşlıq bacarıqları və konfliktlərin idarə edilməsi:<br>• uşaq-uşaq;<br>• uşaq-böyük;<br>• böyük-böyük. |
| | | Valideynlərlə əməkdaşlıq |
| **4.** | **Özünüinkişaf** | Metodik işin məzmunu, planlaşdırılması, təşkilinin forma və metodları |
| | | Özünütəhlilin və stresə davamlılığın xüsusiyyətləri |

**Təhsilverənlər üçün tövsiyə olunan ədəbiyyat:**


1. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 14 aprel 2017-ci il.
https://e-qanun.az/framework/35791

2. “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
https://e-qanun.az/framework/24394

3. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 19 iyun 2009-cu il.
https://e-qanun.az/framework/18343

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 351 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı”
https://e-qanun.az/framework/43192

5. Cəfərova Laləzar – Məktəbəqədər təhsil: Tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab (2019) *(254-cü səhifə istisna olmaqla).*

6. Əkbərova Mehriban – Təsviri sənət və onun tədrisi metodikası (2012)
https://ldhk.edu.az/e-ldhk/uploads/T%C9%99sviri%20inc%C9%99s%C9%99n%C9%99t%20v%C9%99%20onun%20t%C9%99drisi%20metodikas%C4%B1-(M%C3%BChazir%C9%99l%C9%99r).pdf

7. Əliyeva Gülnar, Qədimova Ülkər - Məntiqi və riyazi təfəkkürün inkişafı (2025)
https://arti.edu.az/wp-content/uploads/2025/10/Gulnar-%C6%8Fliyeva-M%C9%99ntiqi-v%C9%99-riyazi-t%C9%99f%C9%99kkurun-inkisafi.pdf

8. Əmrahlı Limunət, Rzayeva Nurangiz – “Uşaq psixologiyası" dərs vəsaiti (2015)

9. Ətraf aləm və təbiətlə tanışlıq metodikası-2 (Tərtibatçı: Sunay Mütəllimova 2020)
https://adpuagcabedi.edu.az/wp-content/uploads/2025/04/12.M.Sunay-Etraf-al%C9%99m-v%C9%99-t%C9%99bi%C9%99tl%C9%99-tanisliq-metodikasi-2.pdf

10. Hacıyeva Sevinc – Sadə riyazi təsəvvürlərin formalaşması metodikası (2019)
https://ldhk.edu.az/e-ldhk/uploads/Riyaziyyat-fizika,informatika%20f%C9%99nn%20birl%C9%99%C5%9Fm%C9%99si%20-%20%C6%8Fm%C9%99nova%20T%C9%99rav%C9%99t.pdf

11. Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili, müəllimlər üçün metodik vəsait (Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2021)
https://www.arti.edu.az/noduploads/book/maktabahazirliq-qruplarinda-inklu-ziv-talimin-tas-kili.pdf

12. Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası (2017)
https://www.tipii.edu.az/noduploads/document/maktabahazirliq-qruplarinda-isin-taskili-metodikasi-istirakci-vasaiti.pdf

13. Məktəbəqədər təhsil proqramı (kurikulum) (2022)
https://edu.gov.az/uploads/mektebeqeder/sened/2023/M%C9%99kt%C9%99b%C9%99q%C9%99d%C9%99r%20t%C9%99hsil%20proqram%C4%B1%20%28kurikulum%29.pdf

14. Məktəbəqədər təhsil proqramının (kurikulumun) tətbiqinə dair metodik tövsiyələr (2022)
https://arti.edu.az/wp-content/uploads/2023/03/M%C6%8FKT%C6%8FB%C6%8FQ%C6%8FD%C6%8FR-T%C6%8FHSIL-PROQRAMININ-KURIKULUMUN-T%C6%8FTBIQIN%C6%8F-DAIR-METODIK-TOVSIY%C6%8FL%C6%8FR.pdf

15. Quliyeva Fatma - Uşaqlarda düzgün qaməti necə formalaşdırmalı? (2022)
https://arti.edu.az/wp-content/uploads/2022/12/Usaqlarda-duzgun-qam%C9%99ti-nec%C9%99-formalasdirmali.pdf

16. Quliyeva Fatma - İlk yardım bacarıqları (Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlər üçün) (2026)
https://arti.edu.az/wp-content/uploads/2026/06/Fatma-Quliyeva_Ilk-yardim_m%C9%99qal%C9%99.pdf

17. Rəhimova Səbinə - Təlimin təşkilində istifadə olunan iş formaları (2025)
https://arti.edu.az/wp-content/uploads/2025/09/260925-S%C9%99bin%C9%99_R%C9%99himova-T%C9%99limin-t%C9%99skilind%C9%99-istifad%C9%99-olunan-is-formalari.pdf

18. Rəhimova Səbinə - Təlimin təşkilində istifadə olunan iş üsulları (2025)
https://arti.edu.az/wp-content/uploads/2025/10/S%C9%99bin%C9%99-R%C9%99himova-T%C9%99limin-t%C9%99skilind%C9%99-istifad%C9%99-olunan-is-usullari.pdf

19. Rəhimova Səbinə - Uşaqyönümlü yanaşmanın praktik nümunəsində məktəbəhazırlıq qrupu üçün günün I yarısının planlaşdırılması (2025)
https://arti.edu.az/wp-content/uploads/2025/12/Usaqyonumlu-yanasmanin-praktik-numun%C9%99sind%C9%99-m%C9%99kt%C9%99b%C9%99hazirliq-qrupu-ucun-gunun-i-yarisinin-planlasdirilmasi.pdf

20. Seyidli Fərqanə – "Açıq hava oyunlarının təşkili və metodikası" adlı oxu materialı (2025)
https://arti.edu.az/wp-content/uploads/2025/12/F%C9%99rqan%C9%99-Seyidli-Aciq_hava_oyunlarinin_t%C9%99skili-v%C9%99-metodikasi.pdf

21. Seyidli Fərqanə - Fiziki mədəniyyət məşğələsində uşaqyönümlü yanaşmanın praktik nümunəsi (məktəbəhazırlıq qrupu)
https://arti.edu.az/wp-content/uploads/2023/02/Fiziki-m%C9%99sg%C9%99l%C9%99-numun%C9%99si.pdf

22. Təhsilverənlərin etik davranış qaydaları (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2024-cü il 15 may tarixli, KQ-07 nömrəli Qərarı)
https://e-qanun.az/framework/56915

23. Uşaqyönümlü, demokratik məktəbəqədər təhsil ("Addım-Addım" yanaşması) (2021)
https://drive.google.com/file/d/1_oE-CjMP-2u5N4i9lozTXbyhquPATGQE/view

**Qeyd:** Əgər tövsiyə olunan ədəbiyyatdakı məlumatlar burada göstərilən rəsmi sənədlərdəki məlumatlarla üst-üstə düşmürsə, rəsmi sənədlərdəki məlumatlar etibarlı mənbə sayılmalıdır.

# Qiymətləndirmə cədvəli

Təhsilverənlərin sertifikatlaşdırılması prosesi təhsilverənlərin öz peşəsi üzrə inkişaf ehtiyaclarını müəyyənləşdirmək üçün həyata keçirilir. Bu səbəbdən, test imtahanı zamanı asan, orta və çətin dərəcəli suallardan istifadə olunması məqsədəmüvafiqdir.

Test imtahanı mərhələsinin sualları aşağıdakı meyarlarda əks olunur. Soldakı sütunda sahələrə görə ümumi sual sayı qeyd edilmişdir. Sahələrə görə müəyyənləşmiş mövzular üzrə fakt, anlayış, prinsip (qaydalar, xassələr, qanunlar) və situasiya tipli sualların hazırlanması nəzərdə tutulur. Sağdakı sütunda imtahan suallarının çətinlik səviyyələrini müəyyənləşdirmək üçün Blum taksonomiyasının mərhələləri idrak səviyyələrinin yaxınlığına görə qruplaşdırılaraq ardıcıllıqla verilmiş, tapşırıqların say aralıqları göstərilmişdir. Həmin rəqəmlər testə daxil ediləcək sualların minimum və maksimum sayını göstərir. Məsələn, əgər say aralığı “2-4” kimi göstərilibsə, bu, müvafiq sual sayının minimum 2, maksimum 4 olacağını bildirir.

**Məzmun və metodika**

ümumi sual sayı: 33

| | asan | orta | çətin |
|---|---|---|---|
| Xatırlamaq və anlamaq | 2-5 | 5-8 | 1-2 |
| Tətbiq etmək və təhlil etmək | 3-6 | 10-12 | 2-4 |
| Dəyərləndirmək və yaratmaq | 1-2 | 3-6 | 1-2 |

**Təhlükəsizlik**

ümumi sual sayı: 15

| | asan | orta | çətin |
|---|---|---|---|
| Xatırlamaq və anlamaq | 1-2 | 2-3 | 1-2 |
| Tətbiq etmək və təhlil etmək | 2-4 | 4-5 | 1-2 |
| Dəyərləndirmək və yaratmaq | 2-3 | 2-4 | 0-1 |

**Pedaqoji etika və əməkdaşlıq**

ümumi sual sayı: 6

| | asan | orta | çətin |
|---|---|---|---|
| Xatırlamaq və anlamaq | 0-1 | 1-2 | 0-1 |
| Tətbiq etmək və təhlil etmək | 1-2 | 1-4 | 0-1 |
| Dəyərləndirmək və yaratmaq | 1-2 | 0-1 | 0-1 |

**Özünüinkişaf**

ümumi sual sayı: 6

| | asan | orta | çətin |
|---|---|---|---|
| Xatırlamaq və anlamaq | 0-1 | 0-2 | 0-1 |
| Tətbiq etmək və təhlil etmək | 1-2 | 1-4 | 0-1 |
| Dəyərləndirmək və yaratmaq | 1-2 | 1-2 | 0-1 |

***Qeyd:*** *Test imtahanı mərhələsində iştirakçılara 60 sual təqdim olunur. Hər imtahan sessiyasında sualların çətinlik dərəcəsi üzrə sayı cədvəldəki xanalarda qeyd olunan aralıqlara uyğun olaraq dəyişə bilər.*

***Qiymətləndirmə cədvəlinin əhəmiyyəti:***

- Testin məzmununun validliyini (ölçülməsi əvvəlcədən nəzərdə tutulmayan məsələlər ölçülmür) təmin edir;
- Test tərtib edənlərin məzmun və bacarıqlar arasında gözləməli olduqları balansı göstərir;
- Müxtəlif qruplar üçün oxşar imtahanların hazırlanmasına imkan yaradır;
- Sualların tərtib olunması zamanı məzmun sahələri arasında balans qorunur;
- Test tərtib edənlər, imtahanda iştirak edənlər və digər maraqlı tərəflər üçün bu məzmun sahələri üzrə fəaliyyət səviyyələri (blum taksonomiyası) arasındakı fərqlilik göstərilir.